# THE EFFECT OF THE IRAVAN TEACHERS' SEMINARY ON THE TRAINING OF AZERBAIJAN TEACHERS

**Sara Bayramova**

Azerbaijan Pedagogical University is named after the Teacher
of Azerbaijan State Pedagogical College,
PhD in pedagogy
E-mail: sara.bayramova7@gmail.com
https://orcid.org/0000-0002-1237-2608

**Abstract**. In the article, in the context of the process of «Armenization» of the Iravan Khanate in tsarist Russia and during the Soviet period, the main features brought by the Soviet period to the struggle of Azerbaijani national intellectuals are examined in the historical-pedagogical aspect. It is noted that the Iravan Teachers' Seminary was not only an educational institution, but also played a major role in the development and formation of Azerbaijani literature, culture, and art in Iravan. It is also noted that the seminary, which was forced to close due to the Armenian-Muslim massacres in Iravan in 1918, was unable to resume its activities, but intellectuals from Iravan continued their struggle even during the years of Soviet rule, for the restoration of the school's activities they fought seriously.

**Keywords**: Azerbaijani enlightenment, Iravan Teachers' Seminary, secondary education, national enlightenment struggle, modern view, a new type of schools.

**To cite this article:** Bayramova S. (2022). The effect of the Iravan Teachers' Seminary on the training of azerbaijan teachers. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 177-188.
**Article history:** received – 13.05.2022; accepted – 21.06.2022.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCANLI MÜƏLLİM KADRLARININ HAZIRLIĞINA TƏSİRİ

**Sara Bayramova**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: sara.bayramova7@gmail.com
https://orcid.org/0000-0002-1237-2608

**Annotasiya.** Məqalədə İrəvan xanlığının çar Rusiyasında və sovet dövründə "ermənilәşdirilməsi" prosesi kontekstində Azərbaycan milli ziyalılarının mübarizəsinə sovet dövrünün gətirdiyi əsas xüsusiyyətlər tarixi-pedaqoji aspektdə araşdırılır**.** Qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyası yalnız tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında və formalaşmasında da böyük rol oynayırdı. Həmçinin o da qeyd olunur ki, 1918-ci ildə İrəvanda azərbaycanlıların soyqırımının nəticəsində bağlanmaq məcburiyyətində qalan seminariyanın öz fəaliyyətini yenidən davam etdirməsi mümkün olmadı, lakin irəvanlı ziyalılar sovet hakimiyyəti illərində də mübarizələrini davam etdirərək, bu məktəbin fəaliyyətinin bərpa olunması üçün ciddi səy göstərmişlər.

**Açar sözlər:** Azərbaycan maarifçiliyi, İrəvan Müəllimlər Seminariyası, orta ixtisas təhsili, milli maarifçilik mübarizəsi, müasir baxış, yeni tipli məktəblər.

**Məqaləyə istinad:** Bayramova S. (2022). İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı müəllim kadrlarının hazırlığına təsiri. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 177-188.
**Məqalə tarixçəsi:** göndərilib – 13.05.2022; qəbul edilib – 21.06.2022.

## Giriş / Introduction

Azərbaycan xalqının maarifçilik tarixində böyük rol oynamış İrəvan Müəllimlər Seminariyasını 1881–1918-ci illər arasında – 37 illik fəaliyyəti dövründə 400-dən çox məzun bitirmişdi ki, onlardan 70-ə yaxını azərbaycanlı olmuşdur.

1918-ci ildə İrəvanda azərbaycanlıların soyqırımı ilə əlaqədar bağlanmaq məcburiyyətində qalan məktəbin fəaliyyətini yenidən davam etdirmək mümkün olmadı, lakin irəvanlı ziyalılar öz mübarizələrini sovet hakimiyyəti illərində də davam etdirərək, bu məktəbin fəaliyyətinin bərpa olunması üçün ciddi səy göstərirdilər.

1921-ci il, dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrə əsasən, köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli sovet məktəblərinin təşkilinə başlanıldı. Beləliklə, Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atıldı: birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli məktəblər təşkil olunaraq fəaliyyətə başladı.

Müəllim çatışmazlığı problemini, qismən də olsa, aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya, müxtəlif ali təhsil müəsisələrinə 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər pedaqoji təhsil almaq üçün göndərilmişdi. Zəhra Abbasova, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq, maarifin inkişafına öz töhfələrini verirdilər [Allahverdiyev C., 2014].

Bu istiqamətdə bir çox tədbirlərin görülməsinə baxmayaraq, müəllim kadrlarına olan tələbat ödənilmirdi.

## Əsas hissə / Main part

EK (b) PMK-nın nəzdində fəaliyyət göstərən Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, EXMK-nın Azlıqda qalan millətlər bürosunun rəhbəri Mehdi Kazımovun, “Zəngi” qəzetinin məsul redaktoru Mustafa Hüseynovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində 1924-cü il, oktyabr ayının 15-də İrəvan Türk Pedaqoji Texnikumu açıldı [Allahverdiyev C., 2014].

Texnikumun ilk fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev ictimaiyyat müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişlər. Bu təhsil ocağı 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandırıldı [Mahmudov Y., Mustafazadə F., və b., 2010].

Onu da qeyd etmək lazımdır ki, İrəvanda, Qərbi Azərbaycanda milli məktəblərimizin ana dilində kitab, dərslik, dərs vəsaiti, tədris proqramları və s. ləvazimatlarla təmin edilməsinə Azərbaycan Xalq Maarif Komissarlığı yaxından kömək göstərirdi.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişlərin baş verdiyi məlum olur. Qısa müddət ərzində bu maarif ocağının ətrafına Əşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar toplaşmağa başladılar. Qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev də ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdır. O, 1926–1927-ci illərdə bu təhsil ocağında kimya, biologiya fənlərini tədris etmişdir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafı və formalaşmasında da böyük rol oynayırdı.

1929-cu ildə pedaqoji texnikuma 32 nəfər qəbul olunmuşdu. Onlardan 16 nəfəri oğlan, 16 nəfəri isə qız idi. Bunlardan 6 nəfəri – İrəvan, 3 nəfəri – Dilican, 2 nəfəri – Dərələyəz, 1 nəfəri – Meğri, 4 nəfəri – Gümrü, 3 nəfəri – Zəngəzur, 3 nəfəri – Nor-Bəyazid, 3 nəfəri – Üçmüədzin bölgəsindən, 3 nəfəri isə uşaq evinin şagirdlərindən idi [Xanlar rayon Dövlət Arxivi].

Ümumiyyətlə, texnikumun təşkilində və müəyyən uğurlara nail olmasında bu tədris ocağının ilk direktoru olmuş Mehdi Kazımovun böyük xidmətləri olmuşdur. Sonralar bu məktəbə müxtəlif dövrlərdə Bəhlul Yusifov, Həbib Məhəmmədzadə, Əsgər Cəfərov rəhbərlik etmişlər.

**Mehdi Kazımov** 1890-cı ildə, İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan oğlan gimnaziyasını bitirdikdən sonra bir müddət İrəvandakı müsəlman oğlan məktəbinin müdiri və qızlar məktəbində rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığının nəzdində təşkil olunmuş Azlıqda qalan millətlər bürosunun müdiri təyin edilmişdi. 1923-cü ilin yanvar ayında Moskvada keçirilən azsaylı xalqların I Ümumrusiya qurultayında iştirak etmişdir.

M.Kazımov ömrünün əlli ildən artıq bir dövrünü, bütün qüvvəsini yorulmadan, fədakarcasına İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin inkişafına sərf etmişdir. 1949-cu ildə İrəvan Pedaqoji Məktəbinin Azərbaycanın Xanlar rayonuna köçürülməsi ilə əlaqədar olaraq M.Kazımov da ailəsi ilə birlikdə Xanlar rayonuna deportasiya edilmiş, 1949–1950-ci illərdə həmin təhsil ocağında rus dili fənnini tədris etmişdir. 1951–1953-cü illərdə indiki Azərbaycan Dövlər Pedaqoji Universitetində rus dili müəllimi vəzifəsində çalışmış, 1954-cü ildə Bakı şəhərində vəfat etmişdir [Mahmudov Y., Mustafazadə F., və b., 2010]. Görkəmli

maarif fədaisinin elmi-pedaqoji fəaliyyətinin xüsusi tədqiqata ehtiyacı vardır.

1932-ci ildə Bəhlul Yusifov texnikuma direktor təyin olunduqdan sonra bu tədris ocağının həyatında ciddi dönüş baş verir.

**Bəhlul Yusifov** 1903-cü ildə Vedibasarda anadan olmuşdur. 1933-cü ildən 1942-ci ilə qədər pedaqoji texnikumun direktoru vəzifəsində çalışmışdır. 1940-cı ildə təhsil sahəsindəki xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

1946-cı ildə B.Yusifov aspiranturaya daxil olur və 1952-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini alır. 1950-ci ildən Neft və Kimya İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır. Ömrünün böyük bir hissəsini elmə, təhsilə, milli pedaqoji kadrların hazırlanmasına həsr etmiş, mahir təşkilatçı, böyük insan B.Yusifov 1984-cü ildə dünyasını dəyişmişdir.

1942-ci ildə B.Yusifov texnikumun direktoru vəzifəsindən azad edilir. Onun yerinə İrəvan Azərbaycan Kənd Təsərrüfatı Texnikumunun direktoru **Həbib Məhəmmədzadə** təyin edilir. O, bu vəzifədə 1948-cı ilə qədər işləmişdir. Məlumat üçün onu da qeyd edək ki, Həbib Məhəmmədzadə İrəvanın məşhur Məhəmmədzadələr nəslinin nümayəndələrindən idi. Sonrakı tədris illərində pedaqoji məktəbin böyük nailiyyətlər qazanmasında bilavasitə onun direktoru, istedadlı, geniş dünyagörüşlü, təşkilatçılıq bacarığı ilə seçilən Həbib Məhəmmədzadənin böyük xidmətləri olmuşdur. Həbib Məhəmmədzadənin ciddi fəaliyyəti sayəsində 1943/1944-cü dərs ilində məktəbdə bir sıra nailiyyətlər əldə edilmişdi [Mahmudov Y., Mustafazadə F., və b., 2010].

1947-ci ildə Həbib Məhəmmədzadə məktəbin direktoru vəzifəsindən azad edildi, onun yerinə coğrafiya müəllimi Əsgər Cəfərov direktor təyin olundu, lakin o, bu vəzifədə cəmi 1 il 6 ay işləyə bildi.

1947-ci ilə qədər fəaliyyət göstərən İrəvan Azərbaycan Pedaqoji məktəbi yalnız tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Qori Seminasiyasının Azərbaycan şöbəsi Gürcüstanın sovetləşməsi nəticəsində ləğv edildikdə onun orada, yəni Qoridə pedaqoji məktəb kimi fəaliyyət göstərməsinə imkan vermədilər. Son nəticədə şöbənin müdiri, xalqımızın görkəmli maarifçi-ziyalısı Firudun bəy Köçərli onu Azərbaycanın Qazax şəhərinə köçürə bildi və həmin məktəb sonralar Qazax Pedaqoji Məktəbi adı altında fəaliyyətini davam etdirdi.

Ermənistan azərbaycanlıları İrəvanın paytaxt elan edilməsi ilə seminariyanın İrəvanda qalması uğrunda hər cür müqavimətə qarşı əzmlə mübarizə aparırdılar. 50 ilə yaxın bir dövrdə həm erməni şovinizminin tarixi Azərbaycan torpaqlarını

ermənilәşdirmək siyasətinə qarşı çıxırdılar, həm də pedaqoji məktəbin azərbaycanlı övladlarının maariflənməsi, savadlı gənc nəslin yetişməsi kimi şərəfli bir missiyasını fədakarlıqla davam etdirirdilər. İkinci Dünya müharibəsinin başlanması ilə məktəb yeni təhlükələrlə üzləşdi. Müəllimlər və yuxarı yaşlı tələbələr, demək olar ki, hamısı müharibəyə göndərildi. Məktəbin öz fəaliyyətini dayandırmaması üçün qadın və yaşlı kişi müəllimlər əsl fədakarlıq nümayiş etdirirdilər. Nəhayət, İrəvan pedaqoji məktəbi Sovet dövlətinin rəhbəri Stalinin əmri ilə Ermənistan azərbaycanlılarının  Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi ilə bağlı SSRİ Nazirlər Sovetinin 1947-ci il, dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına və 1948-ci il, martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarına əsasən, 100 minə yaxın azərbaycanlı tarixi-etnik torpaqlarından deportasiya olundular. 1947-ci il qərarından sonra məktəb öz fəaliyyətini davam etdirə bilmədi və Gəncə yaxınlığına, Xanlara, yəni indiki Göygöl rayonuna köçürüldü. İrəvan Müəllimlər Seminariyasının mənəvi varisləri olaraq, Xanlar Pedaqoji Məktəbi adı altında onun fəaliyyətinin üçüncü dövrü başlandı.

Aşağıda adları qeyd olunan şəxslər müxtəlif illərdə İrəvan Müəllimlər Seminariyasında direktor vəzifəsində çalışmışlar:

1948-ci ildən 1950-ci ilə qədər Cəfərov Əsgər Məmməd oğlu; 1950-ci ildən 1951-ci ilə qədər Cəfərov İsa Qara oğlu; 1951–1965-ci illərdə Şirinov Tarix Şəmdin oğlu; 1965–1968-ci illərdə İsmayılova Suğra Qoca qızı; 1968–1970-ci illərdə Məmmədov Adil İsmayıl oğlu, nəhayət, 1970-ci ilin aprelindən həmin ilin iyuluna qədər Quliyev Qəzənfər məktəb direktoru vəzifəsində çalışmışdır. Bağırov Muqbil, İsmayılova Raziyə, Babayeva Sura və Məmmədov Adil həm də uzun müddət tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmışlar.

Bütün çətinliklərə baxmayaraq, fəaliyyətini davam etdirən Xanlar Pedaqoji Məktəbində 1954-cü ildə I kursdan II kursa 28 nəfər, II kursdan III kursa 29 nəfər, III kursdan IV kursa 53 nəfər tələbənin keçməsi haqqında direktorun əmri vardır. 1956/1957-ci tədris ilində məktəbin yataqxanasında 99 tələbə yaşayırdı.

Pedaqoji məktəb Xanlarda fəaliyyətinə 9 müəllim, 47 tələbə ilə başlamışdı. Onlardan Mehdi Kazımov – pedaqogika, psixologiya və rus dili; Muqbil Bağırov – ana dili və ədəbiyyat; Raziyə İsmayılova – tarix; Məmməd Həsənov – fizika-riyaziyyat; Surə Babayeva – coğrafiya və hüsnxətt; Bəşir Məmmədov – bədən tərbiyəsi və idman; Məmməd Əsədov – sinifdənkənar bədii dərnəklər müdiri; Sadıq Heydərzadə – təbiətşünaslıq fənləri üzrə müəllimi kimi fəaliyyətə başlamışlar. Sonralar 11 nəfər müəllimlə tədrisə davam edən məktəbi 1970/1971-ci tədris ilində 50 nəfər bitirmişdir ki, bunlar sonuncu məzunlar olmuşlar. Onların

adları aşağıdakılardır:

Abbasova Həqiqət Cəmil qızı; Allahverdiyeva Şükür Həsən qızı; Bağırova Əsli Gəncə qızı; Vəliyeva Sevil Nəriman qızı; Əlinur Tahir Muxtar oğlu; Əliyev Firudin Həsən oğlu; Rəşidə Rəcəb qızı; Əskərova Lətifə Əsəd qızı; Əsədova Tamilə Məmmədəli qızı; Zeynalov Vahid Əbdüləli oğlu; Zamanova Məzmurə İbrahim qızı; İsmayılov Təhməz Heydər oğlu; İbrahimov Hidayət Əli oğlu; İmamverdiyeva Fatima Hüsüqulu qızı; Məmmədov Tofiq Rum oğlu; Məmmədova Səfurə Qoşqar qızı; Məmmədova Pəri Rüstəm qızı; Abbasova Zərifə Abdulla qızı; Bağırlı Xalidə Cəlil qızı; Rzayeva Südabə Yunis qızı; Səmədova Yamən Əli qızı; Sadıqova Təzəgül Sərdar qızı; Tapdıqov Oruc Hüseyn oğlu; Hüseynov Əli Dəmir oğlu; Həşimova Həqiqət Abdulla qızı; Hacalıyeva Rəfiqə Alı qızı; Hüseynova Fəridə Hüseyn qızı; Hüseynova Moruq Fərman qızı; Cəfərova Şəhla Cəfər qızı; Cabbarlı Gülgəz Ağababa qızı; Şirinova Ərkinaz Nəriman qızı; Şabanova Şəfiqə Ziya oğlu; Məmmədova Əntiqə Əjdər qızı; Əliyev Teymur Dəmir oğlu; İsmayılov İsfəndiyar Müslüm oğlu; Qasımova Elmira Kazım qızı; Qasımova Qənfilə Ziyad qızı; Rzayev Valeh Ağaməmməd oğlu; Nəbiyev Valeh Bəhlul oğlu; Aslanova Müharib Vəli qızı; Babayeva Səmayə Qara qızı; Bikəli Xədicə Allahqulu qızı; Əliyeva Madura Habil qızı; Nəbiyeva Rəna Seyid qızı; Qənbərova Gözəl Bilal qızı; Nəcəfova Gülnar Aslan qızı; Şahverdiyeva Mübarizə İsmayıl qızı; Cavadov Hafiz Teymur oğlu; Məmmədova Lətifə Abbasəli qızı; Vəliyeva Mehri Hümbət qızı [Xanlar rayon Dövlət Arxivi].

1971-ci ildə buraxılış imtahanı zamanı milliyətcə erməni olan mühasib Zinaida Arakelova və kassir Tamara Martirosovanın fitvaları ilə müəllimlər arasında gərginlik yüksək həddə çatdığı üçün məktəb öz fəaliyyətini Azərbaycan SSR ali və orta ixtisas təhsil nazirinin 21 iyun, 1971-ci il, 201 saylı əmri ilə dayandırdı.

İrəvan Müəllimlər Seminariyasının məzunlarından Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika kafedrasının professoru Abbas İsmayılovu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, tarix elmlər doktoru, professor, Əməkdar elm xadimi Süleyman Məmmədovu, görkəmli ictimai və dövlət xadimi Qəşəm Aslanovu xüsusilə qeyd etməliyik.

**Süleyman Abbas oğlu Məmmədov** 30 dekabr, 1932-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində anadan olmuşdur. 1939–1945-ci illərdə Vedi rayonunun Xalisa kənd yeddiillik məktəbində, 1947-ci ildə Avşar kənd məktəbinin 8-ci sinfində oxumuşdur. 1948-ci ildə İrəvan Pedaqoji Məktəbinə qəbul olunmuş azərbaycanlıların İrəvandan deportasiyası zamanı Xanlar rayonuna köçürülən həmin məktəbi 1951-ci ildə bitirmişdir. 1951–1952-ci illərdə Xalisa kənd yeddiillik məktəbində müəllim işləmişdir. 1954–1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1959–1960-cı illərdə Azərbaycan EA Tarix İnstitutunun Orta əsrlər tarixi şöbəsində baş laborant,

1960–1962-ci illərdə kiçik elmi işçi vəzifəsində işləmiş, 1960–1961-ci illərdə Ermənistan EA Dilçilik İnstitutunda qədim erməni dili üzrə təhsil almışdır. 1962–1965-ci illərdə Ermənistan EA Tarix İnstitutunun məqsədli aspirantı olmuşdur. Həmin institutda 6 sentyabr, 1966-cı ildə "XVII əsrin sonu–XVIII əsrin birinci 30 illiyində Azərbaycan və erməni xalqlarının tarixi əlaqələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Sonrakı illərdə Azərbaycan EA Tarix İnstitutunun Azərbaycanın Rusiya və Qafqaz xalqları ilə əlaqələri tarixi şöbəsində kiçik elmi işçi (1966), Orta əsrlər tarixi şöbəsində kiçik elmi işçi (1966–1971), ADPU-nun Azərbaycan tarixi kafedrasında baş müəllim (1971–1975), dosent (1975–1985), professor (1984–2017) vəzifələrində işləmişdir.

23 mart, 1983-cü ildə Azərbaycan EA Tarix İnstitutunun Müdafiə Şurasında "Azərbaycan XV–XVII əsrin birinci yarısı mənbələrdə" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1986-cı ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona professor elmi adı verildi. S.Məmmədov APİ-nin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının elmi katibi (1975–1985), Azərbaycan EA Tarix İnstitutunun Dissertasiya Şurasının üzvü (1987–2003), Təhsil Problemləri İnstitutunun Dissertasiya Şurasının üzvü (2000–2009), BDU-nun tarix fakültəsində fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini (2003–2006) olmuşdur. 17 fevral, 1989-cu ildə müsabiqə yolu ilə ADPU-nun Azərbaycan tarixi kafedrasının müdiri vəzifəsinə seçilmişdir. O, Moskva, İstanbul, Samsun, London, Ankara, Naxçıvan, Tbilisi, Bakı, Kutaisi, Batumi şəhərlərində keçirilən beynəlxalq konfransların iştirakçısı olmuşdur. 26 dekabr, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin sərəncamı ilə ona Əməkdar elm xadimi fəxri adı verilmiş, 25 may, 2012-ci ildə "İrəvan xanlığının tarixi" kitabının həmmüəllifliyinə görə Dövlət mükafatına layiq görülmüşdür. 2005–2012-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın Ekspert Şurasının üzvü olmuşdur. Elmi-pedaqoji fəaliyyətinə görə ADPU Elmi Şurasının qərarı ilə 2007–2011-ci illərdə "İlin alimi" müsabiqəsinin qalibi olmuşdur. 10 cildlik ASE-nin və 2 cildlik Naxçıvan Ensiklopediyasının müəlliflərindən biridir. Onun 5 monoqrafiyası, 5 ali məktəb üçün, 16 ümumtəhsil məktəbləri üçün dərsliyi, 400-dən artıq elmi və publisistik məqaləsi nəşr olunmuşdur. "XVII əsrin II yarısı – XVIII əsrin birinci otuz illiyində Azərbaycan və erməni xalqlarının tarixi əlaqələri" (1977) və "Azərbaycan XV–XVIII əsrin I yarısında qaynaqlarda" (1993) adlı monoqrafiyaları Nyu-York Konqres Akademiyasının kitabxanasına düşmüşdür. Professor S.Məmmədov Azərbaycanda qədim erməni dili üzrə yeganə mütəxəssis olub. Onun elmi rəhbərliyi ilə 14 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Haqqında "S.Məmmədovun biblioqrafiyası" (2014) kitabı nəşr olunmuşdur. 30 iyun, 2018-ci ildə, Bakı şəhərində vəfat edib.

**Abbas Məhəmməd oğlu İsmayılov** 1927-ci ildə, Qərbi Azərbaycan, Kras-

noselo rayonunun Ardanış kəndində anadan olub. 1936–1942-ci illərdə Ardanış kənd orta məktəbində oxuyub. 1942-ci ildə natamam orta məktəbi qurtaran Abbas İsmayılov təhsilini yarımçıq qoyub, cəbhəyə gedənləri əvəz etmək üçün kolxozda işləməyə başlayır. Sonra hərbi komissarlıq tərəfindən Kirovakan şəhərindəki kimya zavodunda işləməyə göndərilib. O, həmin zavodda 1946-cı ilin avqust ayına qədər işləyib. 1947–1951-ci illərdə İrəvan Pedaqoji Məktəbində işləmişdir. İrəvan Pedaqoji Məktəbi 1948-ci ildə Xanlar rayonuna (indiki Göygöl) köçürülmüşdü. 1951–1955-ci illərdə Salyan rayonunun Parça-xalac kənd yeddiillik məktəbində direktor, 1956–1959-cu illərdə Novxanıda, 1959–1960-cı illərdə Bakıdakı 30 №-li beynəlmiləl orta məktəbdə tədris hissə müdiri işləyib. O, tarix-coğrafiya fənlərini tədris etməklə yanaşı, ictimai əsaslarla tarix üzrə metodist işləmiş, müəllim və valideynlər qarşısında tərbiyənin müxtəlif problemləri ilə bağlı mühazirələr oxumuşdur.

1960–1963-cü illərdə V.İ.Lenin adına APİ-nin Pedaqogika-psixologiya kafedrasında pedaqogikanın tarixi və nəzəriyyəsi ixtisası üzrə əyani aspirantura təhsili alıb. Professor Ə.Seyidovun rəhbərliyi altında 16 aprel, 1965-ci ildə V.İ. Lenin adına APİ-nin Elmi Şurasında "Günüuzadılmış qrup tərbiyəçilərinin I–IV sinif şagirdləri ilə işinin məzmunu və metodları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 16 oktyabr, 1965-ci ildə ona SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib. 24 dekabr, 1963-cü ildə APİ-nin Pedaqogika kafedrasına müəllim, 21 mart, 1967-ci ildə dosent vəzifəsinə seçilib. 24 yanvar, 1968-ci ildə ona SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən pedaqogika kafedrası üzrə dosent elmi adı verilib. İnstitut Həmkarlar Təşkilatının (1967–1969) və fizika-riyaziyyat fakültəsinin partiya təşkilatının büro üzvü (1966–1969) olub. Respublikada ilk dəfə V.İ.Lenin adına APİ-də ictimai peşələr fakültəsi təşkil edib və onun dekanı (1968–1972) olub. Ayrı-ayrı vaxtlarda riyaziyyat və tarix fakültələrində "Gənc pedaqoqlar" dərnəyinə rəhbərlik edib.

14 yanvar, 1985-ci ildə APİ-nin Ümumi pedaqogika kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Xalq Təhsili Dövlət Komitəsi yanında AAK tərəfindən 13 dekabr, 1990-cı ildə ona Ümumi pedaqogika kafedrası üzrə professor elmi adı verilib.

"V.İ.Lenin nümunəsində gənclərin kommunist tərbiyəsi" (1987), "Pedaqogika tarixindən seminar və yoxlama işlərinə dair metodik göstəriş" (1984), "Tələbələrin ideya-siyasi tərbiyəsi" (1988), "Pedaqogika tarixindən tələbələrin müstəqil işlərinə dair" (1989), "Görkəmli sovet pedaqoqları yeni tipli ictimai tərbiyə ocaqları və ailə tərbiyəsi haqqında (1989), "Şifahi xalq ədəbiyyatında tərbiyə məsələləri" (1976), "Günüuzadılmış qruplarda tərbiyəçi işinin məzmunu" (1975), "Günüuzadılmış qruplarda tərbiyə məsələləri" (1992, F.Rüstəmovla bir-

likdə) kitabları, 100-dən artıq elmi və publisistik məqaləsi nəşr olunub.

"SSRİ maarif əlaçısı", "Azərbaycan SSR maarif xadimi" döş nişanları, Azərbaycan SSR Maarif Nazirliyinin, Respublika "Bilik" cəmiyyətinin və ADPU-nun Fəxri fərman və diplomları ilə təltif edilib.

15 yanvar, 1992-ci ildə dünyasını dəyişmişdir.

**Qəşəm Novruz oğlu Aslanov** 10 aprel, 1934-cü ildə, Qərbi Azərbaycanın Göyçə mahalı, Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olub. 1949-cu ildə kənd yeddiillik məktəbini bitirdikdən sonra Xanlar Pedaqoji Texnikumunda oxumuşdur.

15 oktyabr, 1959-cu ildə Basarkeçər rayon komsomol komitəsinin birinci katibi, 1962-ci ildə rayonlar arası "Sevan" qəzetində redaktor vəzifələrində çalışıb. 1962-ci ildə Basarkeçər rayon partiya komitəsi katibinin ideoloji iş üzrə müavini seçilib. 1966-cı ildə SSRİ Jurnalistlər İttifaqına üzv qəbul olunub. 1966–1968-ci illərdə Moskvada, Ali Partiya məktəbində oxuyub.

1968-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində inspektor, 1970–1972-ci illərdə "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, 1972–1975-ci illərdə Şuşada birinci katib, 1975–1984-cü illərdə Abşeron və İsmayıllı rayonlarında birinci katib vəzifəsində işləyib. "Saymazovun salamı", "Qeyrətin nağılları" adlı kitabları çap olunub, "Eloğlu" imzası ilə şeirlər yazıb.

1984-cü ildə avtomobil qəzasında həlak olub və Fəxri Xiyabanda dəfn edilmişdir.

## Nəticə / Conclusion

Göründüyü kimi, İrəvan Müəllimlər Seminariyası, eləcə də onun mənəvi ardıcılları olan İrəvan Pedaqoji Texnikumu, nəhayət Xanlar Pedaqoji məktəbi daim erməni təhdidləri ilə qarşılaşsa da, şanlı bir yol keçmiş, xalqımızın ən çətin dövründə – çar və sovet Rusiyasının işğalı dövründə məqsədli şəkildə bizim düşmənimizə çevrilmiş ermənilərin fitnəkarlığını dəf edərək, xalqımızı çox böyük məsuliyyətlə "Azərbaycan davası" adlı milli mücadiləyə hazırlamışdır.

İrəvan Müəllimlər Seminariyasının başladığı ictimai-maarifçi hərəkat Sovet Rusiyası dönəmində də öz fəaliyyətini dayandırmamış, yeni formada "Nəriman Nərimanov adına İrəvan Azərbaycan Pedaqoji Texnikumu" və "Göygöl Pedaqoji Məktəbi" adları altında bir əsrə yaxın fəaliyyət göstərmiş, azərbaycanlıların Ermənistanda hüquqlarının müdafiəçisi olmuş, orta ixtisaslı pedaqoji kadr hazırlığı tarixinə öz imzasını qızıl hərflərlə yazmışdır. Bizə elə gəlir ki, "İrəvan" ifadəsinin milli-siyasi-tarixi əhəmiyyətini nəzərə alaraq, İrəvan Seminariyasının "İrəvan Ali Müəllimlər Seminariyası" adı altında respublikamızda fəaliyyətinin yenidən təmin edilməsi çox aktual əhəmiyyət kəsb edir.

**Məqalənin aktuallığı.** İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi ilə bağlı keçirilən tədbirlər bu seminariyanın fəaliyyətini, o cümlədən azərbaycanlı müəllim kadrlarının hazırlanmasında rolunun yenidən araşdırılmasını gündəmə gətirir. Seminariyanın Azərbaycan maarifçilik tarixindəki xidmətləri, müəllim çatışmazlığının qismən də olsa, aradan qaldırılmasındakı fəaliyyətinin tədqiqi zamanı seminariyanın azərbaycanlı millətindən olan müəllim heyətinin yaşadığı çətinliklər haqqındakı faktlar ortaya çıxır. Bu isə yüz illərlə davam edən, ermənilərin azərbaycanlılara qarşı törətdikləri milli zəmində olan cinayətkarlığının bu gün də aktual olduğunun göstəricisidir.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, çar Rusiyasının, sonra isə Sovet dövlətinin tərkibində olan xalqlara, o cümlədən Azərbaycan xalqına olan ikili münasibət təhlil olunur. Bu ikili münasibət erməni-azərbaycanlı, müsəlman-xristian münasibətlərində dəqiq tarixi faktlarla sübuta yetirilir. Həmçinin məqalədə İrəvan Müəllimlər Seminariyasının məşhur məzunları haqqında yeni məlumatlar verilir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə Azərbaycanın təhsil tarixi ilə maraqlanan tədqiqatçılar, elmi işçilər, müəllimlər, tələbələr üçün ətraflı məlumat mənbəyidir. Onlar bu məqalədən Azərbaycan təhsil tarixi haqqında biliklərini artırmaq, dünyagörüşlərini formalaşdırmaq üçün istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Allahverdiyev C. (2014). İrəvan pedaqoji məktəbi. "Vedibasar" qəzeti, 16–31 yanvar.
2. Bayramov H. (2015). Çar Rusiyasının Azərbaycanda təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması (monoqrafiya). Bakı, "Elm", 368 s.
3. Bayramov İ., Mustafa N. (2021).Həqiqətin onomastikası. Bakı, 463 s.
4. Cəfərov C., Allahverdiyev C. (2017). İrəvanda milli maarifçilik mühiti. Bakı, "Şərq-Qərb", 440 s.
5. Əhmədov H. (2012). Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı, "Maarif", 542 s.
6. Həbibbəyli İ. (2015). Naxçıvandan Naxçıvana. Bakı, "Elm və təhsil", 846 s.
7. Xanlar rayon Dövlət Arxivi, (indiki Göy göl). Xanlar Pedaqoji məktəbinin 1948/1949-cu tədris ili üçün əmr kitabı. № 1–288. Fond 131, qeyd № 2, saxlama vahidi 1, əlaqə vərəqi 1.
8. Xanlar rayon Dövlət Arxivi, (indiki-Göygöl). Xanlar Pedaqoji məktəbinin 1970–1971-ci tədris ili üçün əmr kitabı. № 1-288. Fond 133, qeyd № 2, saxlama vahidi 2, əlaqə vərəqi 3.

9. Mahmudov Y., Mustafazadə F., Məmmədov S. və b. (2010). İrəvan xanlğı Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı,"CBS", 463 s.
10. Məmmədov S. (2014). Biblioqrafiya.
11. Mustafa N. (2020). İrəvan şəhəri. Bakı, "Red N line", 292 s.
12. Rüstəmov F. (2006). Pedaqogika tarixi. Bakı, "Nurlan", 748 s.
13. Rüstəmov F. (2021). Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları. Bakı, ADPU, 544 s.
14. Rüstəmov F. (2022). İrəvan Müəllimlər Seminariyası və onun məzunları. Bakı, "Elm və təhsil".
15. Rzayev V. (2018). Naxçıvanda məktəb və pedaqoji fikir. (XIX əsr və XX əsrin əvvələri). Naxçıvan, 392 s.
16. Yusifov B. (1940). 15 illik yubiley. "Sovet Ermənistanı" qəzeti, 7 dekabr.